

# SƏNƏT YOLUNDA...

*Aydın TAĞIYEV,*
*AYB Şabran bölməsinin sədri*

**Əbədiyyətə aparan bir yol da sənət yoludur. Qədim Şabran bölgəsinin ulu Çıraqqalanın ətəyindəki, elə qala ilə yaşıd Çaraq kəndində dünyaya göz açan, yaşı səksəni haqlayan Şərbətəli Mahmudov da uzun illərin qələm məhsulu olan şeirlər toplusunu "Yoldayam..." adlandırıb.**

Bu kitab müəllifin oxucularla ilk ədəbi görüşüdür.

Kitaba şairin müxtəlif illərdə qələmə aldığı şeir və poemaları toplanıb.

Kitaba toplanan əsərlər ayrı-ayrı bölmələrə ayrılıb.

"Vətən" bölməsində toplanan şeirlər adından da göründüyü kimi əzəli və əbədi yurdumuz doğma Azərbaycana, müəllifin doğulub boya-başa çatdığı Çaraq kəndinə həsr olunub. Şair doğma kəndini belə tərənnüm edir:

**Arxası sal qaya, önündə meşə,**
**Dağlar qucağından görünür kəndim.**
**Saysız bulaqları, buz mağarası,**
**Sərin havasıyla öyünür kəndim.**

**("Kəndim")**

"Qarabağ" bölməsindəki şeirlərdə isə şair düşmən tapdağı altında olan ən ağrılı yerimizə, Qarabağ mövzusuna üz tutub.

**Qubadlı, Zəngilan, Ağdam, Kəlbəcər,**
**Fizuli, Cəbrayıl, Zəngəzurumuz.**
**Vətən torpaqları yenə birləşər,**
**Bölünməz Azərbaycan - Odlar yurdumuz.**

**("Qələbəyə inam")**

Kitabda "Təbiət" bölümündə toplanan şeirlər isə şairin təbiətə münasibətinin poetik ifadəsi kimi diqqəti cəlb edir:

**Badamın, alçanın ağ çiçəkləri,**
**Bahar qızımızın gəlinlik donu.**
**Zoğalın sapsarı baş örtükləri,**
**Bərq vuran günəştək bəzətmiş onu.**

**("Kəndimizin baharı")**

Şərbətəli Mahmudov ixtisasca Azərbaycan dili və ədəbiyyat müəllimidir. Yarım əsrə yaxın rayonun Ağbaş kənd orta məktəbində pedaqoji fəaliyyət göstərib.

Bəlkə də elə buna görədir ki, onun yaradıcılığında didaktik mövzular əsas yer tutur. Kamillik, xeyirxahlıq, şərə nifrət, Vətənə məhəbbət, böyüyə-kiçiyə hörmət, ailəni sevmək, dostluğa sədaqət, etibarlı, düz-dürüst, bir sözlə layiqli insan olmaq, qocaman pedaqoqun bir şair kimi də yaşlı-cavan oxucularına sözü, öyüd-nəsiyyəti də elə bunlardır:

**Bu fani dünyada - çalışaq gərək,**
**Şeytan hiylələsindən qorunmaq üçün.**
**Gəl, şandan-şöhrətdən sən, Şərbət, əl çək,**
**Əbədi dünyaya qovuşmaq üçün.**

**("Dünya")**

Əlbəttə, müəllim şair kimi, Şərbətəli Mahmudovun gələcəyimiz olan balalara məhəbbəti sonsuzdur. Baba kimi nəvələrinə həsr etdiyi şeirləri elə bütün uşaqlara ünvanlanıb:

"Fatimə" şeirində şair baba Gəncədə yaşayan nəvəsinə məhəbbətdə necə də səmimidir:

**Sən çox yaraşıqlısan,**
**Baban, nənən xoşlayır.**
**Sən Göy-göl olsanız,**
**Oxşarın tapılmayır.**



***

**Nəvələrim-hamınız,**
**Mənim barımsız, balam!**
**Uzaqda da qalsanız,**
**Qəlbə yaxın balam!**

Şeirimizin bir əzəli və əbədi mövzusu da məhəbbətdir. Məhəbbət yaşa baxmır kimi müdrik kəlamı Şərbətəli müəllimin kitabın "Qəzəllər, rübailər", "Lirika" bölümündə toplanan yaradıcılıq nümunələri də təsdiq edir:

**Nə qədər ki, edə naz bülbülə gül,**
**Xoşdur ona ki, aşiqini bezdirə gül.**

***

**Səhərin göz yaşıtək şehi ilə,**
**Yuyunub təmizlənə pak ola gül...**

Kitabda müəllifin insan və onun mənəvi dünyası, müasir gerçəkliklər haqqında mənzum hekayələri, eləcə də uşaqlıq çağları 1941-45-ci illərin qanlı-qadalı vaxtına düşən şairin o dövrdə minlərlə atasız yaşıdı kimi yaşadığı çətin günlərdən bəhs edən "Xatirələrim" adlı poeması da çap edilib.

Şair öz kitabını "Yoldayam..." adlandırıb. Elə bir yolda ki, arzusu "bu yolun kənarında tər çiçəklər əkməkdir", həm də bu yolun əziyyətini yalnız özü çəkmək niyyətindədir.

Əlbəttə, ömür yolu kimi ədəbiyyat, sənət yolu öz yaradıcılıq axtarışları və əzabları ilə dolu olsa da şirin və unudulmazdır.

**Bu yollarda "Yoldayam..." kitabının müəllifi dostumuz Şərbətəli müəllimə yaradıcılıq uğurları, bol-bol sənət sevincləri arzulayırıq.**

ədalət.-2017.-8 iyul.-S.13.